**AQTA ilə əməkdaşlıq fəaliyyətləri**

- **06–10 iyun 2026** – İsveçrə Konfederasiyasının Cenevrə şəhərində keçirilən Kodeks Alimentarius Komissiyasının 49-cu sessiyasında Agentlik nümayəndələrinin iştirakı təmin olunmuşdur. Qeyd edilən sessiya çərçivəsində Azərbaycanın FAO və ÜST-nin Avropa üzrə Koordinasiya Komitəsinin növbəti koordinator ölkəsi seçilməsi ilə bağlı namizədliyinin dəstəklənməsi məqsədilə Komitəyə üzv dövlətlərin nümayəndələri ilə ikitərəfli görüşlər keçirilmişdir. Görüşlər zamanı Azərbaycanın koordinator seçiləcəyi təqdirdə həyata keçirilməsi nəzərdə tutulan prioritet fəaliyyət istiqamətləri, üzərinə götürməyə hazır olduğu öhdəliklər və regional əməkdaşlığın inkişafına dair baxışı təqdim olunmuş, həmçinin üzv ölkələrin gözləntiləri və mümkün əməkdaşlıq istiqamətləri barədə ətraflı fikir mübadiləsi aparılmışdır.
- **9-13 mart 2026** – Macarıstanın Budapeşt şəhərində keçirilən Analiz və Nümunəgötürmə Metodları üzrə Kodeks Komitəsinin 45-ci sessiyasında Agentlik nümayəndələrinin iştirakı təmin olunmuşdur. Sessiyası zamanı allergenlərin profilaktik xarakterli etiketlənməsi üçün analiz metodları, müxtəlif məhsul (balıq və balıqçılıq məhsulları, yağlar və piylər, dənli bitkilər, paxlalılar və onlardan əldə edilən məhsullar) standartlarının analiz metodları kimi məsələlər müzakirə edilmişdir.
- **10-14 noyabr 2025** – Kodeks Alimentarius Komissiyasının 48-ci sessiyası zamanı Azərbaycanın Avropa üzrə Regional Koordinatoru olma niyyəti ilə bağlı Komitə üzvləri ilə bir daha danışıqlar aparılaraq onların fikirləri öyrənilmiş və sualları cavablandırılmışdır.
- **3-7 noyabr 2025** – Kodeks Alimentarius Komissiyasının İcra Komitəsinin 89-cu sessiyası zamanı Azərbaycan nümayəndəsi ilk dəfə olaraq Komissiyanın sessiyaları arasında onun ən ali icraedici orqanı funksiyasını həyata keçirən İcra Komitəsinin 89-cu sessiyasında Avropa regionu təmsilçisinin məsləhətçisi qismində iştirak etmişdir.
- **29 oktyabr 2025** – CCEURO üzvləri üçün keçirilən Pre-session çərçivəsində Azərbaycan nümayəndə heyətinin üzvü təqdimatla çıxış edərək CCEURO koordinatorluğu ilə bağlı Azərbaycanın Vision və məqsədləri ilə bağlı ətraflı məlumat vermişdir.
- **2-6 iyun 2025** – Ümumi Prinsiplər üzrə Kodeks Komitəsinin 34-cü sessiyası çərçivəsində Azərbaycan nümayəndə heyəti FAO/ÜST-nin Avropa üzrə Əlaqələndirici Komitəsinin hazırkı koordinatoru olan Almaniya Federativ Respublikasının nümayəndə heyəti və Komitə üzvləri ilə Azərbaycanın növbəti koordinator olmaq niyyəti barədə danışıqlar aparmışdır. Almaniya nümayəndə heyəti ilə danışıqlara əsasən Azərbaycan nümayəndə heyətinin 10–14 noyabr 2025-ci il tarixlərində Romada keçiriləcək Kodeks Alimentarius Komissiyasının 47-

ci sessiyası çərçivəsində və ya ondan öncə Komitə üzvləri üçün koordinatorluq niyyəti ilə bağlı təqdimatla çıxış etməsi razılaşdırılmışdır. Finlandiya nümayəndə heyətindən Dr. Sebastian Hielm Azərbaycan nümayəndəsinin 3–7 noyabr 2025-ci il tarixlərində keçiriləcək Kodeks Alimentarius Komissiyasının İcra Komitəsinin 89-cu sessiyasında Avropa regionu təmsilçisinin məsləhətçisi qismində iştirakına razılıq vermişdir.

- **May 2025** – FAO-nun Azərbaycandakı Ofisindən daxil olan məlumata əsasən "Dayanıqlı və yüksək səviyyədə təşkil olunmuş Milli Kodeks Sisteminin yaradılması üçün Azərbaycan Respublikasına dəstək" - Kodeks Etimad Fondu 2A layihəsinin maliyyə çatışmazlığı səbəbindən FAO-nun regional ofisi tərəfindən layihənin iş planındakı heç bir fəaliyyəti üçün vəsait ayırılması mümkün olmadığı bildirilmişdir. Bu səbəbdən layihənin icrası dayandırılmışdır.
- **25-30 noyabr 2024** – İsveçrə Konfederasiyasının Cenevrə şəhərində keçirilən Kodeks Komitəsinin 47-ci sessiyasında Agentlik nümayəndələrinin iştirakı təmin olunmuşdur. Qeyd edilən sessiya zamanı Kodeks Komitəsinin yeni sədr və sədr müavinləri seçilmiş, eləcə də FAO/ÜST Avropa Əlaqələndirmə Komitəsinin 33-cü sessiyasının nəticələri, Prosessual Təlimata dəyişikliklər, Kodeks Alimentarius Komissiyasının İcra Komitəsinin 86-cı və 87-ci sessiyalarından irəli gələn qərarlar, 2020-2025-ci illər üzrə Kodeksin Strateji Planının icra hesabatı və 2026-2031-ci illər üzrə Planın statusu və növbəti addımları, Kodeks standartlarının istifadəsi, Kodeks Etimad Fondunun fəaliyyəti ilə bağlı hesabat və digər bu kimi mövzular müzakirə olunmuş və növbəti il ərzində görüləcək işlər müəyyənləşdirilmişdir. Sessiya zamanı Azərbaycan nümayəndə heyəti Dr. Sebastian Hielm (Finlandiya) ilə növbəti CCEXEC sessiyasında onun məsləhətçisi qismində iştirak etmək məqsədilə danışıqlar aparmışdır. Azərbaycanın bu niyyətinə ilkin olaraq müsbət münasibət bildirilmişdir.
- **19 iyul 2024** – Agentlik tərəfindən CCEURO34 sessiyasının birgə təşkili məqsədilə Almaniya Federativ Respublikasının Ərzaq və Kənd Təsərrüfatı Nazirliyinə (BMEL) məktub ünvanlanmışdır. Lakin Almaniya tərəfi 2024-cü il 27 sentyabr tarixli məktubunda artıq tədbirin keçirilməsi üçün məkanla bağlanmış məcburi müqavilələr səbəbindən birgə ev sahibliyinin mümkün olmadığını bildirmişdir. Bununla belə, Almaniya Azərbaycanın gələcəkdə Avropa üzrə Regional Koordinator roluna hazırlanmasına dəstək verməyə hazır olduğunu və bu istiqamətdə əməkdaşlığı davam etdirmək istədiyini vurğulamışdır.
- **27-31 may 2024** – Almaniya Federativ Respublikasının Berlin şəhərində keçirilən FAO/ÜST Avropa üzrə Əlaqələndirmə Komitəsinin 33-cü sessiyasında Agentlik nümayəndələrinin iştirakı təmin olunmuşdur. Qeyd edilən sessiya zamanı FAO-nun və ÜST-ün Avropa regionunda fəaliyyəti, qida təhlükəsizliyi və qidanın keyfiyyəti, 2020-2025-ci illər üzrə Kodeksin Strateji Planı və 2026-2031-ci illər üzrə

Planın statusu və növbəti addımları, Kodeks standartlarının regionda istifadəsi kimi mövzular müzakirə edilmişdir.

- **27 noyabr-2 dekabr 2023** – İtaliya Respublikasının Roma şəhərində FAO-nun baş Qərargahında keçirilən Kodeks Komissiyasının 46-cı sessiyasında Agentlik nümayəndələrinin iştirakı təmin olunmuşdur. Sessiyası zamanı Komissiyanın 60 illik fəaliyyəti, Komitələrin fəaliyyəti çərçivəsində hazırlanan sənədlər, Komitələrə yeni sədr və sədr müavinlərinin seçilməsi, Komissiyanın büdcəsi və maliyyə məsələləri ətrafında müzakirələr aparılmışdır.
- **14-15 sentyabr 2023** – FAO, Kodeks Alimentarius Komissiyası və Agentliyin birgə təşkilatçılığı ilə "Avropa və Mərkəzi Asiyada Qida standartlarının təkmilləşdirilməsi və Kodeksin fəaliyyətində iştirakın genişləndirilməsi" mövzusunda ikigünlük beynəlxalq tədbir keçirilmişdir.
- **12-24 sentyabr 2023** – Kodeks videoçəkiliş komandasının Bakıya səfəri təşkil olunmuşdur. Səfər çərçivəsində Agentlik və İnstitutda, müxtəlif bazar və marketlərdə çəkilişlər həyata keçirilərək Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar videoçarx hazırlanmışdır.
- **3-7 iyul 2023** – layihə çərçivəsində Agentlikdə Türkiyənin Kodeks Alimentarius Milli Əlaqələndirici qurumunun məsul şəxsinin ölkəmizə səfəri çərçivəsində Agentliyin əməkdaşları üçün təlim keçirilmiş, müxtəlif mövzular üzrə təqdimatlar edilmişdir.
- **7 dekabr 2022** – Tuğba Adıgüzel Kargın və Nilufer Dural tərəfindən Kodeks mövzusunda sonuncu onlayn təlim keçirilmişdir. İştirakçılara Ümumdünya Ticarət Təşkilatı (ÜTT) və SPS Sazişi, üzvlərin hüquq və vəzifələri, şəffaflıq prinsipi və bildiriş, SPS Sazişi çərçivəsində görülən işlər və SPS Milli Bildiriş Təşkilatı və Sorğu Nöqtəsi haqqında məlumat verilmişdir.
- **20-26 noyabr 2022** – Agentliyin nümayəndələri Kodeks Alimentarius Komissiyasının Romada keçirilən 45-ci iclasında iştirak etmişdir. Nümayəndə heyəti Azərbaycanı Komissiyada təmsil etmiş, yeni sədrlərin müzakirələrində və seçkilərində iştirak etmiş, digər ölkə nümayəndə heyətləri ilə görüş və müzakirələr aparmışdır.
- **29 aprel 2022** – Diego Varela, Claudio Canales, Cassandra Pacheco tərəfindən "Kodeks Alimentariusda ölkə olaraq iştirak: Çili təcrübəsi" mövzusunda onlayn təlim keçirilmişdir. Milli struktur, müxtəlif mövzuların həll olunma yolları, nazirliklər, özəl və akademik sektorlar arasında koordinasiya, Kodeks görüşlərində iştirak etmək üçün məsləhətlər, və Komitələrin prioritetləşdirilməsi barədə təlim iştirakçılarına məlumat verilmişdir.
- **11 aprel 2022** – BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı nümayəndələrinin ölkəmizə səfəri təşkil olunmuşdur.
- **4 və 18 aprel 2022** – türk ekspert Nilufer Dural tərəfindən Kodeks Alimentarius-da ölkə olaraq iştirak: "Türkiyənin Kodeks Komitələrindəki təcrübələri və Kodeks

Alimentariusda bir ölkə kimi iştirak: CCEURO" mövzularında onlayn təlim keçirilmişdir.

- **30 mart 2022** – türk ekspert Nilufer Dural tərəfindən Codex Alimentarius-un milli səviyyədə istifadəsi: "Milli Kodeks Strukturu üçün əməliyyat prosedurları" mövzusunda onlayn təlim keçirilmişdir. İştirakçılara Türkiyədə iş üsulları və konsultasiya, Milli Qida Kodeksi Komitəsi və Alt Komitələr və Kodeks iclaslarına hazırlıq (dəvətlər, milli mövqelərin təqdim edilməsi və s.) haqqında məlumat vermişdir.
- **1 fevral 2022** – türk ekspert Nilufer Dural tərəfindən "Kodeks Alimentarius nədir" mövzusunda onlayn təlim keçirilmişdir. İştirakçılara Kodeks Alimentarius Komissiyası, Komissiyanın strukturu və Kodeks standartlarının hazırlanması prosesi haqqında məlumat vermişdir.
- **19 yanvar 2022** – beynəlxalq ekspert Diego Varela tərəfindən "Kodeks Alimentarius nədir" mövzusunda onlayn təlim keçirilmişdir.
- **29 noyabr-2 dekabr 2021** – Agentliyin nümayəndə heyətinin layihə çərçivəsində Türkiyə Respublikasına təlim səfəri baş tutmuşdur. Səfər zamanı Kodeks Alimentarius Komissiyası və Komitələri üzrə Türkiyə təcrübəsi barədə məlumat verilmişdir. Türkiyə Respublikasının Kodeks Alimentarius Milli Komissiyası, Komitələr və Katibliyin funksiyaları, strukturu və vəzifələri, Komitələr arasında əlaqə, Komissiya və Komitə üzvlərinin seçim prosesləri, iş prosesində üzləşilən çətinliklər, Komitələrin müxtəlif maraqlı tərəflərlə iş prosedurları barədə Türkiyə təcrübəsi öyrənilmişdir.
- **14 iyul 2021** – "Kodeks Etimad Fondu 2A" layihəsi çərçivəsində Azərbaycan, Türkiyə və FAO nümayəndələrinin iştirakı ilə Milli Kodeks Sisteminin qurulması istiqamətində görüş keçirilib.
- **2021-ci il** – "Dayanıqlı və yüksək səviyyədə təşkil olunmuş Milli Kodeks Sisteminin yaradılması üçün Azərbaycan Respublikasına dəstək" - Kodeks Etimad Fondu 2A layihəsi (Kodeks Alimentarius Komissiyası çərçivəsində əməkdaşlıq) hazırlanmışdır. FAO və ÜST ilə birgə həyata keçirilən layihə çərçivəsində Milli Kodeks Sisteminin təkmilləşdirilməsi, milli SPS norma və qaydalarının inkişaf etdirilməsi üçün Kodeks standartlarından istifadə üzrə texniki heyətin bacarıqlarının gücləndirilməsi, kodeksin işində iştirak edən heyətin Kodeks Alimentarius Komissiyası və köməkçi orqanlarının işində səmərəli iştirak üçün müvafiq biliklərə yiyələnməsi istiqamətində tədbirlər görülmüşdür.
- **6 iyul 2020** – AQTA-nın təşəbbüsü ilə hazırlanmış "Dayanıqlı və yüksək səviyyədə təşkil olunmuş Milli Kodeks Sisteminin yaradılması" layihəsi FAO və WHO tərəfindən uğurlu layihə kimi qəbul edilib.
- **4 oktyabr 2019** – Azərbaycanda qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi məqsədilə Kodeks Alimentarius Milli Komissiyasının ilk iclası keçirilib. Məqsəd milli sanitariya norma və qaydalarının beynəlxalq standartlara uyğunlaşdırılmasıdır.

- **19 iyul 2018** – Azərbaycan ilk dəfə Kodeks Alimentarius Komissiyasının Romada keçirilən 41-ci sessiyasında iştirak edib, qida təhlükəsizliyi üzrə beynəlxalq qərarların qəbulunda təmsil olunub.
- Eyni zamanda, AQTA fəaliyyətə başladığı vaxtdan Kodeks Alimentariusun yeddi Komitəsinin sessiyalarında iştirak etmiş və prioritet olaraq altı Komitənin fəaliyyətinin izlənilməsini planlaşdırır.
- Bundan əlavə, AQTA Avropa regionu üzrə FAO/ÜST-nin Koordinasiya Komitəsinin növbəti koordinatoru olmaq niyyətini rəsmi şəkildə bəyan etmiş, həmçinin Kodeks Alimentarius İcra Komitəsində məsləhətçi qismində iştirak üçün danışıqlar aparmışdır.